Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 11 (1716) 16 dekabr 2020 - ci il Qiymətı 50 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər



**Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən Müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Zəfər paradında iştirak ediblər.

"Dəmir yumruq" əməliyyatında - Azərbaycanın Vətən Müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradına müdafiə nazirinin müavini, "Zəfər" ordenli general-leytenant Kərim Vəliyev komandanlıq edib.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi olub. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirilib.

Hərbi orkestr "Azərbaycan fanfarası"nı ifa edib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana raport verib.

Dövlət başçıları əsgərləri salamladıqdan sonra hərbi orkestr Azərbaycanın və Türkiyənin dövlət himnlərini ifa edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış ediblər.

Dövlət başçılarının çıxışlarından sonra Zəfər paradı başlayıb. Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət bayrağı və şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında tribunaya doğru irəliləyib. Dövlət bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanına gətirilib.

## BU SAYIMIZDA




**12 dekabr Ulu Öndər Heydər Əliyevin anım günüdür** 2



**ATU ilə Ankara Universiteti arasındakı əməkdaşlıq geniş tərkibli görüşdə müzakirə olunub** 2

**Fədakar həkimlərimiz Vətən Müharibəsində** 5

◆ **Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 17 il keçir.**

və dönməz edib. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müasir Azərbaycan dövləti qurulub, müstəqil dövlətin Konstitusiyası qəbul olunub, dövlətimiz dünyada öz layiqli yerini tutub. Məhz Ulu Öndərin qərarı ilə Azərbaycan milli bayrağı – Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

1993-cü il iyun ayının 15-də Azərbaycan xalqının təkidi ilə Heydər Əliyev yenidən hakimiyyətə qayıtmış, məhz Ulu Öndərin müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti sayəsində gənc, müstəqil respublika qaçılmaz qoyulmuş hüquqi dövlət quruculuğunun Azərbaycan modeli və siyasi kursu, həmçinin ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir.

Azərbaycan xalqının 30 il həsrətində

# 12 dekabr Ulu Öndər Heydər Əliyevin anım günüdür





Tarixə müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və böyük şəxsiyyət kimi daxil olan Ulu Öndər Heydər Əliyevin şərəfli ömür yolundan, Vətən qarşısında xidmətlərindən və müstəqillik dövründə Azərbaycana layiqincə rəhbərlik etməsindən nə qədər danışsaq yenə də az olar.

Dünya tarixi sübut etmişdir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Bu şəxsiyyətlər arasında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin özünəməxsus yeri vardır.

Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırıb, ölkə daxilində aparılan islahatlar nəticəsində respublikamızın müxtəlif istiqamətlərdə inkişafını təmin edib, müstəqilliyini əbədi elan edilib. Öz müdrikliyi ilə Azərbaycan tarixində dərin iz qoyan Heydər Əliyev Azərbaycan xalqının ən çətin anlarında öz haqq səsini ucaldıb, sovet rəhbərliyini ittiham edib, Kommunist Partiyasının sıralarını tərk edib.

Ulu Öndər Heydər Əliyev əsl liderlik keyfiyyətlərini nümayiş etdirərək 20 Yanvar faciəsi zamanı öz xalqının yanında olub və sovet rəhbərliyinin bu cinayətini pisləyib. Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra çətin vəziyyətlə üzləşmiş, 1991-1993-cü illərdə hakimiyyətdə hökm sürən böhran ölkəni vətəndaş müharibəsi vəziyyətinə aparmış, yaranmış vəziyyətdən sui-istifadə edən Ermənistan Azərbaycanı parçalamağa, onun müstəqilliyinə təhdid yaratmağa cəhd etmişdir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və xalqımıza qarşı etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizi – Dağlıq Qarabağ regionu və ətraf yeddi rayon işğal edilmiş, 1 milyondan fəlakətdən qurtulmuş, ölkənin daxili və xarici siyasətində sabitlik bərqərar olunmuş, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə atəşkəs əldə edilmiş, ölkə yeni inkişaf dövrünə qədəm qoymuşdur. Azərbaycan xalqı Heydər Əliyev tərəfindən görülmüş işləri layiqincə qiymətləndirərək, onu xalqın Ümummilli Lideri kimi əbədiləşdirmişdir. Xalqımız ən ağır anlarında ona üz tutub, hakimiyyətə dəvət edib və bundan sonra Azərbaycan sabitlik və inkişaf dövrünə qədəm qoyub. Görkəmli dövlət xadimi Heydər Əliyevin 30 ildən artıq bir dövrü əhatə edən xalq qarşısında misilsiz xidmətləri dövlətçilik salnaməsində bir iz yaradıb.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun bu gün Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirildiyi və onun yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan regionda lider ölkəyə çevrilib. Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən olduğu Qarabağ Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun şücaəti ilə 44 günlük Vətən Müharibəsində işğaldan azad olunub. "Dəmir yumruq" əməliyyatı nəticəsində tarixi Qələbə qazanılıb. Xalqımız dekabrın 10-da keçirilən möhtəşəm Zəfər paradının təsiri altındadır. Bu şanlı Qələbəni xalqımız haqlı olaraq qürurla, böyük sevinclə bayram edir. Qələbə nümayişi Silahlı Qüvvələrimizin gücünü bütün dünyaya nümayiş etdirdi. Xalq – Ordu birliyinin təntənəsi oldu, Türkiyə – Azərbaycan qardaşlığının rəmzinə çevrildi.

Bu gün Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının azadlığının, müstəqilliyinin təntənəsinə yönələn müqəddəs strateji ideyaları onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

# Şəhid həkimlərimizi ehtiramla anırıq!

## Azərbaycan Tibb Universitetinin Vətən müharibəsində iştirak edən və öz müqəddəs həkimlik peşələrini yerinə yetirən zaman qəhrəmancasına şəhid olan məzunları

Dr.Rasim Abdullayev – t/x polkovnik-leytenantı
Dr.Azər Şəmilov- t/x leytenantı
Dr.Turqut Xəlilbəyli- t/x leytenantı
Dr.Adil Əfəndiyev- t/x leytenantı
Dr.Mirlətif Ağayev- t/x leytenantı
Dr.Anar Məmmədov- t/x kapitanı
Dr.Eldar Abdullayev- t/x giziri
Dr.Nurlan Fərəməzov- t/x baş leytenantı
Dr.Şöhrət Qasımov- t/x baş leytenantı
Dr.Tariyel Salmanov- t/x leytenantı



**Allah rəhmət eləsin!**




ATU-nun mətbuat xidməti

# ATU ilə Ankara Universiteti arasındakı əməkdaşlıq geniş tərkibli görüşdə müzakirə olunub

**Azərbaycan və Türkiyə arasında hər bir sahədə geniş əməkdaşlıq təhsil və səhiyyə sahələrini də əhatə edir. İki qardaş ölkənin universitetləri arasında sıx tərəfdaşlıq və faydalı iş birliyi mövcuddur. Bu barədə iki ölkənin universitet rəhbərləri və diplomatları arasında keçirilən son onlayn görüşdə də fikirlər bildirilib.**

Görüşdə Türkiyənin Azərbaycandakı keçmiş Fövqəladə və Səlahiyyətli Səfiri Erkan Özoral, Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, Azərbaycan Tibb Universitetinin rəhbər şəxsləri, Ankara Universitetinin rəhbərliyi, Azərbaycanın Türkiyədəki Səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova və bir sıra digər Azərbaycan Universitetlərinin rəhbərləri iştirak ediblər.

Onlayn müzakirələr zamanı Türkiyənin Ankara Universitetinin rektoru, professor Dr. Necdet Ünüvar yola saldığımız 2020-ci ildə bəzi Azərbaycan Universitetləri ilə sıx əlaqələrin qurulduğunu və onların inkişaf etdirildiyini bildirib. Rektor Necdet Ünüvar bu əməkdaşlıqlar arasında ATU-nun xüsusi yerə malik olduğunu bildirib: "Biz "Bir millət, iki dövlət" kəlmələrini hər anlamda, hərtərəfli yerinə yetiririk. Azərbaycan və Türkiyə daim bir-birinin arxasındadır. Biz də Ankara Universiteti olaraq, istərdik ki, işbirliyimiz təhsil sistemində də özünü göstərsin. Ötən ay Azərbaycan Tibb Universiteti, Texniki və İqtisad Universitetləri ilə əməkdaşlığı gücləndirmişik".

Rektor N.Ünüvar qeyd edib ki, artıq Azərbaycan universitetlərinin tələbələri üçün Ankara Universitetinin dərslərini onlayn şəkildə izləmək imkanı yaradılıb. Hər iki tərəf prosesin gedişindən və əldə olunan nəticələrdən çox razıdır. Toplamda Aəzrbaycan Tibb Universitetindən 139 tələbə bizim online dərslərə qoşulur.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli də Ankara Universiteti ilə əməkdaşlığı yüksək səviyyədə qiymətləndirib. Qeyd edib ki, bu əməkdaşlığın müddəti 1 aydan bir qədər artıq müddəti əhatə etsə də, böyük nəticələr əldə olunub: "Tələbələrimiz böyük həvəslə Ankara Universitetinin onlayn dərslərində iştirak edirlər, dərslərin təşkilindən və gedişindən çox razılıq edirlər. Hələlik bu il yalnız I kursları ortaq onlayn dərslərə cəlb etmişdik. Lakin əldə olunan müsbət təcrübə onu göstərir ki, bu yeniliyi digər kurslarda da tətbiq edə bilərik".

Rektor G.Gəraybəyli əməkdaşlığın başlandığı qısa müddət ərzində görülən işlər və gələcək planlar haqqında görüş iştirakçılarına məlumat verib. Bildirib ki, rektorlar arasında ilk görüşdən sonra əməkdaşlığın yaradılması və inkişaf etdirilməsi məqsədilə işçi qrup yaradılıb. Ankara Universitetinin 4 ixtisas - tibb, stomatologiya, tibb bacılığı və sağlıq bilimləri ixtisasları üzrə onlayn dərslərinə qoşulmasına dair razılıq əldə olunub. Qarşıda isə yeni hədəflər var: "Azərbaycan Prezidentinin imzaladığı Dövlət Proqramında ölkəmizdə tibb təhsilinin beynəlxalq səviyyəyə qaldırılması ilə əlaqədar tapşırıqlar var. Bu baxımdan, Ankara Universiteti ilə ikili diplom proqramlarının başlanmasına dair fikirlərimiz də var".

Professor G.Gəraybəyli hər kəsi Azərbaycan ordusunun əldə etdiyi zəfər münasibətilə təbrik edərək bu çətin dövrdə qardaş Türkiyənin güclü dəstəyinə görə bir daha görüş iştirakçılarına təşəkkürünü çatdırdı.

Türkiyənin ölkəmizdəki keçmiş səfiri Erkan Özoral Ankara Universitetinin Türkiyənin aparıcı ali məktəblərindən biri olduğunu qeyd edib. Türkiyə və Azərbaycan Universitetləri arasında işbirliyinin olduqca əhəmiyyətli olduğunu bildirən cənab Erkan Özoral gələcəkdə qarşılıqlı əməkdaşlığın daha da möhkəmləndirilməsi, yeni sahələri əhatə etməsinin vacib olduğunu qeyd edib.

Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim hər bir sahədə olduğu kimi, təhsil və səhiyyə sahəsində də iki ölkənin bütün qurumları arasında yüksək səviyyəli əməkdaşlığın mövcudluğunu vurğulayıb. O, diplomat kimi Türkiyədə xidmət göstərdiyi illər ərzində təhsil sahəsində qarşılıqlı əlaqələrin gücləndirilməsi üçün işlər görüldüyünü, ilbəil belə tədbirlərin sayının daha da çoxalacağını qeyd edib.





Qeyd edək ki, görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, tədris şöbəsinin müdiri Samir Cavadov, II müalicə-profilatika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli, Stomatologiya fakültəsinin dekanı, dosent Səid Əhmədov, İctimai Səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayev, əczaçılıq fakültəsinin dekanı, dosent Kamandar Yaqubov iştirak ediblər.

# İstanbul Universiteti-Cərrahpaşa ATU-nun yeni tibb bacısı ixtisasına öz dəstəyini verib

**Son illər Azərbaycan Tibb Universitetinin beynəlxalq əlaqələri sürətlə inkişaf etməkdədir. ATU dünyanın bir çox ölkələrinin aparıcı tibb universitetləri ilə qarşılıqlı əməkdaşlıq müqavilələri imzalayıb. Bu universitetlər arasında Türkiyənin ali məktəbləri, o cümlədən İstanbul Universiteti-Cərrahpaşa xüsusi yer tutur.**



İstanbul Universiteti-Cərrahpaşanın rektoru, professor Nuri Aydın Qarabağ zəferi münasibətilə Azərbaycan xalqına öz təbriklərini çatdırıb. Sıx əlaqələrin nəticəsində növbəti addım olaraq, yeni açılmış tibb bacısı ixtisası üçün Türkiyədə istifadə olunan dərs vəsaitlərini ATU-ya hədiyyə edib. Biz inanırıq ki, bu kitablar tələbələrimiz üçün olduqca faydalı olacaq.

Qeyd edək ki, bu əməkdaşlığın daha da qüvvətləndirilməsində Azərbaycanın Türkiyədəki Səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibovanın da xüsusi əməyi vardır.

# ATU Çində keçirilən beynəlxalq onlayn konfransda təmsil olunub

**Azərbaycan Tibb Universiteti Çində keçirilən beynəlxalq onlayn konfransda təmsil olunub.**




Çin Xalq Respublikasının Lanzhou Universiteti və Qansu Əyalətinin Təhsil Departamenti tərəfindən birgə təşkil olunan "Tək kəmər, Tək yol" Universitetlər Alyansının builki konfransı onlayn olaraq keçirilib. Konfransda 17 ölkədən 60-a yaxın universitetin səlahiyyətli nümayəndələri iştirak edib. Konfrasın mövzusu "Pandemiyadan sonrakı dövrdə beynəlxalq əməkdaşlığa və mübadiləyə yeni yanaşma"ya həsr olunub. Azərbaycan Tibb Universitetini konfransda Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov təmsil edib.

**ATU-nun mətbuat xidməti**

# "COVİD-19-la mübarizədə birlikdə güclüyük" vebinarı keçirilib

Bu günlərdə Azərbaycan Tibb Universiteti və ATU-nun Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə "COVİD-19-la mübarizədə birlikdə güclüyük" adlı vebinar baş tutub.

Vebinarda giriş sözü ilə çıxış edən ATU-nun təlim və tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov hər kəsi Azərbaycan ordusunun qazandığı şanlı qələbə münasibətilə universitet rəhbərliyi adından təbrik edib: "30 ilə yaxındır işğal altında olan torpaqlarımızın azad edilməsi Azərbaycan tarixində yeni bir səhifə oldu. Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu böyük zəfər münasibətilə hər kəsi ATU rəhbərliyi adından ürəkdən təbrik edirəm! 44 günlük müharibədə torpaqlarımızın azadlığı uğrunda şəhid olan hərbçilərimizə Allahdan rəhmət, yaralılara isə şəfa diləyirəm".

Z.Musabəyov dünyada, o cümlədən Azərbaycanda koronavirusun növbəti dalğasının yarandığını, yoluxma və ölüm saylarının gündən-günə kəskin surətdə artdığını qeyd edərək bu dövrdə tibb işçilərinin üzərinə ağır yük düşdüyünü, bu səbəbdən mövzu ilə bağlı müzakirələrin aparılmasına ehtiyac olduğunu bildirdi.

Sonra ATU-nun Tələbə Gənclər Təşkilatının hazırladığı video-çarx nümayiş etdirilib. Video materialda koronavirusdan qorunmaq üçün zəruri qaydalar əks olunub.

Vebinarda ATU-nun Yoluxucu xəstəliklər kafedrasının dosenti Könül Cəfərova koronavirusa yoluxan şəxslərdə rast gəlinən əlamətlər, xəstəliyin simptomsuz gedişi, nisbətən yaşlı və yanaşı xəstəliyi olan şəxslərdə baş verə biləcək ağırlaşmalar haqqında məlumat verib. ATU-nun Tibbi mikrobiologiya və immunologiya kafedrasının professoru Nigar Ağayeva isə COVİD-19 virusunun diaqnostikası, aparılan testlərin yoluxma haqqında informativlik dərəcəsi və s. bu kimi vacib məsələlər haqqında danışıb.

ATU-nun Şüa diaqnostikası və terapiyası kafedrasının müdiri, dosent Məlahət Sultanova koronavirusa yoluxan şəxslərdə rast gəlinən ağciyər əlamətləri, xəstəliyin gedişində hansı instrumental diaqnostika vasitələrindən istifadə edilməsi, "Buzlu şüşə" görüntüsü, protokola uyğun olmayan formada özünü evdə müalicə edərək ağırlaşan şəxslərdə rast gəlinən ağırlaşmalar zamanı ağciyərdə baş verən dəyişikliklər və s. haqqında çıxış edib. Sonda qonaqlar iştirakçıların suallarını cavablandırıblar. Qeyd edək ki, vebinarda 150-yə yaxın tələbə iştirak edib.









# "Əczaçılıq texnologiyası və idarəçiliyi" kafedrasında vebinar

**ATU-nun "Əczaçılıq texnologiyası və idarəçiliyi" kafedrasının əməkdaşları, I kurs magistrantlar və doktorantların iştirakı ilə onlayn toplantı keçirilib. Vebinarda kafedranın müdiri professor, əczaçılıq elmləri doktoru, əməkdar müəllim Məhbubə Vəliyeva giriş sözü ilə çıxış edərək Azərbaycan ordusunun əldə etdiyi şanlı qələbə münasibətilə hər kəsi təbrik edib. O, həmçinin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə vebinar iştirakçıları adından təşəkkürünü bildirib. İclas iştirakçıları Vətən Müharibəsində canını fəda edən şəhidlərin ruhunu bir dəqiqəlik sükutla yad ediblər.**

Sonra gündəlik üzrə məsələlərin müzakirəsi aparıldı. İlk olaraq ATU-nun "Əczaçılıq texnologiyası" və "Əczaçılıq işinin təşkili" ixtisasları üzrə magistraturaya qəbul olunmuş I kurs magistrantların magistr dissertasiya mövzularının və elmi rəhbərlərinin təyin olunması məsələsinə baxılıb. Kafedranın tədris işləri üzrə müdir müavini, dosent Sevil Mehralıyeva magistrantların adlarını və mövzularını, o cümlədən elmi rəhbərlərini təqdim edib.

"Əczaçılıq texnologiyası" və "Əczaçılıq işinin təşkili" ixtisası üzrə magistrantlar araşdırdıqları mövzu ilə bağlı 10 dəqiqəlik çıxış ediblər. Onlar mövzunun aktuallığı, məqsəd və vəzifələri, təqdim olunan yeniliklər və praktik əhəmiyyətindən danışıblar. Çıxışlardan sonra mövzular ətrafında geniş diskussiya aparılıb, verilən suallar magistrantlar və onların elmi rəhbərləri tərəfindən cavablandırılıb. Tövsiyələr və iradlar nəzərə alınmaqla mövzular və elmi rəhbərlər təsdiq olunub.

Müzakirəyə çıxarılan növbəti məsələ "Əczaçılıq üzrə fəlsəfə doktoru" adını almaq üçün doktoranturaya qəbul olunmuş doktorantların dissertasiya mövzusu və elmi rəhbərin təyin olunması ilə bağlı idi. Əczaçılıq üzrə fəlsəfə doktoru adı almaq üçün Telli Əlizadə tədqiq etdiyi "Azərbaycanda dərman vasitələrinin təhlükəsizliyinin monitorinqi sisteminin vəziyyətinin öyrənilməsi və onun effektivliyinin optimallaşdırılması" mövzusunu təqdim edib, verilən sualları cavablandırıb.

"Əczaçılıq elmləri doktoru" adını almaq üçün doktoranturaya qəbul olunmuş doktorantların doktorluq dissertasiya mövzularının və elmi rəhbərin təyin edilməsi məsələsi ilə bağlı qeyd edilib ki, bu adı almaq üçün kafedranın 3 əməkdaşı doktoranturaya qəbul olunub. Professor Məhbubə Vəliyevanın rəhbərliyi altında yerinə yetirilən doktorluq dissertasiyalarının mövzuları müzakirə olunub. Doktorantlar "Pektin əsasında antiseptik və yarasağaldıcı effektə malik hidrogel terapevtik sistemlərin işlənib hazırlanma texnologiyası sahəsində tədqiqatlar" (K,Əliyeva), "Təbii mənşəli xammallar əsasında iltihab əleyhinə müasir dərman formalarının alınma texnologiyasının işlənib hazırlanması və onların bioəczaçılıq xüsusiyyətlərinin öyrənilməsi sahəsində tədqiqatlar" (S. Mehralıyeva), "Biyanın əsasında əczaçılıq məhsullarının yaradılması, onların marketinqinin təşkili və milli əczaçılıq sənayesində tətbiqi" (F.Mədətli) işlərini təqdim ediblər.









İclasın sonunda kafedranın dosenti K.Cəlilova və assistent A.Hüseynova 5 illik seçkiləri ilə əlaqədar müsabiqədə iştirak etmələri müzakirə olundu. Kafedra müdiri, professor M.Vəliyeva başda olmaqla, bütün əməkdaşlar onların əməyini yüksək qiymətləndirərək bu çətin və şərəfli işlərində uğurlar diləyiblər.

**ATU-nun mətbuat xidməti**

# Fədakar həkimlərimiz Vətən Müharibəsində

**◆ Ali Baş Komandan, prezident İlham Əliyevin rəhbərliyi altında indi Azərbaycan tarixinin yeni səhifəsi yazılır. Azərbaycan həkimləri və səhiyyə işçiləri də Ali Baş Komandanın çağırışına uyğun olaraq, Vətən Müharibəsinin ilk günündən ön cəbhədə vətən borclarını yerinə yetiriblər. İstər dövlət səhiyyə ocaqlarında, istərsə də özəl sektorda çalışan tibb işçilərinin əksəriyyəti könüllü olaraq ön cəbhəyə yollanıblar.**

## "Yaralı əsgər və zabitlərimizə yüksək səviyyəli tibbi xidmət göstəririk"



II Qarabağ savaşının ilk günlərindən universitet rəhbərliyinin tövsiyəsi ilə 30-a yaxın professor-müəllim heyəti, o cümlədən respublikamızın tanınmış həkimlərindən ibarət tibbi personal könüllü olaraq cəbhə bölgəsində olan hərbi hospitallara ezam ediliblər. Bu barədə ATU-nun Ümumi cərrahiyyə kafedrasının müdiri, professor Elçin Ağayev məlumat verib. Onun sözlərinə görə, 44 günlük Vətən Müharibəsində həkimlərimiz ön cəbhədəki yaralı hərbçilərimizə yüksək səviyyəli tibbi yardım göstəriblər: "Müharibənin ilk günlərində yaralılarımız həddindən artıq çox olduğundan həqiqətən də təcrübəli həkim kontingentinə böyük ehtiyac var idi. Füzuli, Naftalan, Gəncə bölgələrində hospitallara ağır vəziyyətdə gətirilən yaralı əsgər və zabitlərimizə yüksək ixtisaslı tibbi yardım göstərmişik".

E.Ağayev tibbi xidmətin yüksək səviyyədə təşkili üçün əllərindən gələn hər şeyi edən Naftalan Mərkəzi Xəstəxanasının və Gəncə Beynəlxalq hospitalının rəhbərliyinə öz təşəkkürünü bildirərək, bu işə məsul dövlət qurumlarının dəstəyindən də söz açıb:

"Tibbi təchizatla bağlı xırda problemləri çıxsaq, demək olar ki, ciddi problemlərimiz yox idi. Həm "Təbib" ictimai təşkilatı, həm də dövlətin bu işə məsul olan qurumları bizi adekvat olaraq lazımi tibbi avadanlıq və ləvazimatlarla təmin edirdilər. Gəncə Beynəlxalq Hospitalı özəl xəstəxana olmasına baxmayaraq, bu işə böyük vətən sevgisi ilə yanaşaraq bütün imkanlarını yaralı hərbiçilərimizin tezliklə sağalmasına yönəltmişdilər. Orada çoxsaylı yaralılar vardı. Öz potensialları hesabına, eyni zamanda dövlətin bu sahəyə görəvləndirilmiş qurumlarının dəstəyi ilə yaralılara xidmət göstərmək üçün maksimal şərait yaratmışdılar. Ön cəbhəyə ezam olunduğumuz müddətdə Naftalan və Gəncədə universitetimizin əməkdaşları tərəfindən bir neçə yüz xəstəyə yüksək ixtisaslı tibbi yardım göstərildi".

Gəncədən, Naftalandan qayıtdıqdan sonra da Tədris Cərrahiyyə Klinikasında yaralıların müalicəsi ilə intensiv məşğul olmağa başladıqlarını söyləyən professor E.Ağayev əksər kafedra əməkdaşlarının bu işə cəlb edildiyini deyib: "Təkcə bizim kafedrada 100-dən artıq yaralıya tibbi xidmət göstərildi, müxtəlif əməliyyatlar aparıldı. Güllələrin, qəlpələrin çıxarılması, yaraların müalicəsi, müxtəlif rekonstruktiv bərpaedici əməliyyatlar icra olundu və hal-hazırda da yaralı əsgər və zabitlərimizə yüksək səviyyəli tibbi xidməti davam etdiririk. Yaralı əsgər balalarımızın əksəriyyətini Allahın köməkliyi ilə sağlamlıqlarına qovuşdurdub ailələrinə yola salmışıq. Amma şöbəmizdə hələ də yaralı əsgərlər var və biz sidqi-ürəkdən onlara tibbi xidmət göstəririk. Bu gün şöbəmizdə 18 yaralının müalicə prosesi davam etdirilir. Lazım olan bütün vasitələrlə təmin edilmişik. Yəni, tibbi təchizat çox yüksək səviyyədədir".







I Qarabağ savaşında da həkim kimi işləyən E.Ağayev xatırladıb ki, həmin vaxtlar bizim çox böyük sıxıntılarımız vardı: "Çatışmazlıqlar həddindən artıq çox idi. Zəruri dərman preparatları, sarğı materialları çatışmırdı. Hətta əməliyyata gedərkən əlimizi yumağa sabun belə tapmırdıq. Şükürlər olsun ki, indi Azərbaycan müstəqil dövlətdir. Himnimiz, bayrağımız var, sərhədlərimizi öz əsgərlərimiz qoruyur. Bu dövlətin vətəndaşı olmaq, dəstəkçisi olmaq hər bir azərbaycanlının, o cümlədən biz həkimlərin də borcudur. I Qarabağ savaşında da igid oğullarımız şücaətlə, mərdliklə, qeyrətlə vuruşsalar da, qələbəyə qovuşa bilməmişdik. Qürurverici haldır ki, güclü dövlətimiz, qətiyyətli Ali Baş Komandanımız və Müzəffər Ordumuz 44 günlük Vətən Müharibəsində illərlə arzuladığımız bu qələbəni gerçəkləşdirdi. Ali Baş Komandanın dediyi kimi, biz mənfur, riyakar bir düşmənlə qonşuluqda yaşadığımızı nəzərə alaraq, güclü ordu quruculuğunu daim diqqətdə saxlamalıyıq".

Bu baxımdan yüksək ixtisaslı həkimlərin yaralı hərbçilərimizə tibbi yardım göstərmək təcrübəsinin gənc nəslə öyrədilməsinin vacibliyini söyləyən E.Ağayev bundan sonra da üzərilərinə düşən vəzifəni layiqincə yerinə yetirəcəklərini, əsgər və zabitlərimizə tibbi xidmət göstərməyi özlərinin şərəf işi hesab edəcəklərini vurğulayıb.

Elçin Ağayev onu da qeyd edib ki, hospitallarda həkimlər igid əsgərlərimizə öz övladları kimi yanaşır, onların qulluğunda durur, nəvaziş göstərirlər: "Bu, bizim insanlıq borcumuzdur. Bundan əlavə, yaralı hərbiçilərimizin ad günlərini qeyd etməyi də özümüzə mənəvi borc bilmişik.

İki gözünü itirsə də, məğrurluğunu itirməyən əsgər balamızın himnimiz səslənərkən ayağa qalxıb əlini ürəyinin üstünə qoymasını həyəcansız, kövrəlmədən izləmək mümkünsüzdür. Sinəsində şəhid dostunun adı yazılan lövhə gəzdirən, sınmış qolundakı gipsin üstünə "Qarabağ Azərbaycandır!" yazan oğullarımızla necə qürur duymayasan?!"

**Arif MƏMMƏDLİ**

## Həkimlərimiz əsgərlərimizin sağlamlığı üçün öz üzərlərinə düşən vəzifəni şərəflə yerinə yetirdilər

**Uzun müddətdir ki, Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında Vətən Müharibəsində döyüşən və yaralanan qazilərin müalicə aldığını deyən klinikanın oftalmologiya şöbəsinin müdiri Qurban İsmayılov yaralılar arasında ən çox rast gəlinən xəsarətlər və onların müalicəsi haqqında məlumat verib.**



Bildirib ki, klinikamıza gətirilən əsgərlərin əksəriyyəti ağız, üz-çənə, göz, burun-boğaz və kəllə-beyin zədəsi almışdı. Bu xəstələrin müalicəsi hərbi hospitalda başlamışdı və Tədris Cərrahiyyə Klinikasında davam etdirildi. Əsgər və zabitlərimizin müalicəsinə şöbəmizin kollektivi ilə yanaşı, burun- boğaz, neyrocərrahiyyə, ağız və üz-çənə üzrə sahələrin aparıcı mütəxəssisləri də könüllü olaraq qoşuldu. Bu müddət ərzində mən 117 xəstə üzərində ağır əməliyyatlar apardım. Yaralı əsgərlərimizə xüsusi qayğı ilə tibbi yardım göstərən həkimlərimizdən Aytən Eyvazova, Aynur Verdiyeva, Gülnar Əliyeva və Fərhad Nurməmmədovun adlarını çəkmək istəyirəm. Onlar ağır yaralılara ilkin tibbi yardım göstərməklə yanaşı, əməliyyatlarda da yaxından iştirak etdilər. Mənə elə gəlir ki, biz üzərimizə düşən məsuliyyəti dərk edərək gərgin işin öhdəsindən lazımınca gələ bildik. Bu gün qürurla deyə bilərik ki, Vətən Müharibəsində həkimlərimiz əsgərlərimizin sağlamlığı üçün öz üzərlərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirdilər".





Əsgərlərimizlə təmasda olarkən çox təsirli məqamlarla qarşılaşdığını söyləyən həkim heç vaxt yadından çıxmayacaq bəzi epizodları da bizimlə bölüşüb: "İki gözünü itirmiş əsgərin yenidən cəbhəyə qayıtmaq istəməsini, yenə də iki gözünü itirmiş digər pasiyentimizin – "həkim, görəsən balalarımın üzünü bir daha görə biləcəyəmmi" sualını verməsini həyatımda rast gəlmədiyim ən sarsıdıcı və unutmayacağım anlardan biri hesab edirəm. Və yaxud başqa bir ağır yaralı əsgərin "canım-qanım torpağıma və Azərbaycanıma qurbandır" söyləməsi məni nə qədər qürurlandırdığını heç cür sözlə ifadə edə bilmirəm. Eşq olsun belə vətən oğullarımıza. Belə igidləri olan ölkə heç zaman düşmən işğalında qala bilməz!"

Yubiley

# Azərbaycan əczaçılıq elminin tanınmış siması



**Azərbaycan əczaçılıq elminin tanınmış simalarından biri də görkəmli alim, böyük təcrübəyə malik pedaqoq, çoxsaylı elmi tədqiqat işlərinin rəhbəri, qiymətli elmi əsərlərin və dərsliklərin müəllifi professor Yusif Balakərim oğlu Kərimovdur.**

Y.Kərimov 7 dekabr 1940-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1965-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunu (indiki ATU) əczaçılıq ixtisası üzrə bitirmişdir. Elə həmin ildə farmakoqnoziya və botanika kafedrasında aspiranturaya qəbul olunmuşdur. 1966-cı ildə keçmiş SSRİ Elmlər Akademiyasının Leninqrad şəhərində yerləşən "Bitki kimyası" laboratoriyasına elmi ezamiyyətə göndərilmiş və elmi işinin təcrübə hissəsini həmin müəssisədə yerinə yetirmişdir. Aspiranturanı bitirdikdən sonra "Azərbaycan florasından olan ardıcın bəzi növlərinin müqayisəli farmakoqnostik tədqiqi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və əczaçılıq elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

1970-ci ildən başlayaraq Azərbaycan Elmlər Akademiyasının Botanika İnstitutunun "Bitki ehtiyatları" şöbəsində əvvəl kiçik elmi işçi, daha sonra isə böyük elmi işçi vəzifəsində çalışmışdır. Bu müddət ərzində yabanı dərman bitkilərini öyrənmək məqsədi ilə Azərbaycanın müxtəlif bölgələrinə təşkil olunmuş ekspedisiyalara rəhbərlik etmişdir. Azərbaycan xalq təbabətində istifadə olunan dərman bitkiləri haqqında qiymətli məlumatlar toplamış, ali və ibtidai bitkiləri fitokimyəvi tədqiq etmiş və yabanı bitkilərin ehtiyatşünaslıq tədqiqatları ilə məşğul olmuşdur.

1984-cü ildə Azərbaycan Tibb İnstitutunun Farmakoqnoziya və botanika kafedrasında dosent vəzifəsinə seçilmişdir və artıq 36 ildir ki, həmin kafedrada fəaliyyət göstərir. 1988-ci ildə Ukraynanın Xarkov şəhərində "Tibbdə və qida sənayesində istifadə etmək məqsədilə Azərbaycan florasından olan bəzi bitkilərin fitokimyəvi tədqiqi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1990-cı ildə professor elmi dərəcəsinə layiq görülmüşdür.

1989-cu ildən 2017-ci ilə qədər farmakoqnoziya kafedrasının müdiri vəzifəsində çalışmışdır. Onun rəhbərliyi altında Farmakoqnoziya kafedrası Respublikamızda yüksək ixtisaslı əczaçı kadrların hazırlanması istiqamətində böyük işlər görmüşdür. Hal-hazırda həmin kafedrada məsləhətçi-professor vəzifəsində çalışır.

Professor Y.Kərimov müxtəlif vaxtlarda Azərbaycan Əczaçılarının Elmi-Praktik Cəmiyyətinin və Azərbaycan Əczaçılar Assosiasiyasının sədri olmuşdur. Keçmiş SSRİ-nin doktorluq dissertasiya işlərinin təsdiqi üzrə koordinasiya şurasının üzvi olmuşdur.

Qafqaz eko regionunda dərman bitki xammal ehtiyatlarından səmərəli istifadə üzrə layihələrdə iştirak etmişdir. MDB ölkələrində istifadə edilən dərman bitki xammallarına aid monoqrafiyaların tərtibi və təsdiqi komissiyasının (ÜST, Cenevrə) eksperti olmuşdur. Dəfələrlə Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsi üzrə Dövlət İmtahan Komissiyasının sədri və üzvi olmuşdur.

Azərbaycan "Əczaçılıq və farmakoterapiya" jurnalının və "Farmakom" (Ukrayna) jurnalının, Ukraynanın Xarkov şəhərində hər il dərc olunan "Lekarstvo-çeloveki" elmi əsərlər toplusunun redaksiya heyətinin üzvidir. Simferopol şəhərində yerləşən "Qeyri-ənənəvi bitkiçilik, etnologiya, ekologiya və sağlamlıq" Beynəlxalq simpoziumunda təşkilat şurasının üzvidir. Fransanın Aralıq dənizi Tibb Universitetinin farmakoqnoziya və homeopatiya laboratoriyası ilə elmi əməkdaşlıq haqqında müqavilənin iştirakçısıdır və bu əməkdaşlıq birgə dərc olunan məqalələr və kadrların hazırlanmasında özünü göstərir.

Azərbaycan əczaçılarının III qurultayının təşkilində və keçirilməsində iştirak etmişdir.

Professor Y.Kərimovun rəhbərliyi altında 5 əczaçılıq üzrə fəlsəfə doktoru və 2 əczaçılıq elmləri doktoru hazırlanmışdır. Professor Y.Kərimovun tələbələri olmuş professor T.Süleymanov əczaçılıq kimyası kafedrasının, professor C.İsayev isə farmakoqnoziya kafedrasının müdiri vəzifəsində fəaliyyət göstərirlər.

O, 200-dən artıq elmi əsərin, 5 dərsliyin, 10 dərs vəsaitinin, 4 monoqrafiyanın və 19 ixtiranın sahibidir ki, bunlardan da dördü istehsal prosesində tətbiqini tapmışdır. "Azərbaycanın dərman bitkiləri" kitabı onun vacib elmi əsərlərindəndir. Fitotussin, Faqolin və Qobustan balzamı Azərfarm əczaçılıq şirkətində, Şəfa şərbəti isə Herbaflora şirkətində istehsal olunur. Hazırda Azərfarm və Herbaflora şirkətlərinin elmi məsləhətçisidir. Onun kafedraya rəhbərliyi dövründə Fransanın, Gürcüstanın, Rusiyanın və Ukraynanın əczaçılıq universitetləri ilə sıx elmi əməkdaşlıq həyata keçirilmişdir.

Uzun müddət Universitetin Böyük Elmi Şurasının və Əczaçılıq fakültəsinin Elmi Şurasının üzvi, Respublikanın Əczaçılar Assosiasiyasının rəhbəri, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Farmakologiya və Farmakopeya Ekspert Şurasının üzvi olmuşdur.

Professor Y.Kərimov Azərbaycan Respublikasının Əməkdar müəllimi fəxri adına layiq görülmüş, "Azərbaycan Səhiyyəsinin əlaçısı" döş nişanı ilə təltif olunmuşdur.

Azərbaycanda əczaçılıq ixtisasının layiqli nümayəndəsi, tədrisin, elmin və təcrübənin çətin yollarını şərəflə keçən böyük alim, görkəmli pedaqoq, professor Yusif Balakərim oğlu Kərimov 80 illik yubileyini yaradıcılıq fəaliyyətinin tam çiçəkləndiyi dönəmdə qeyd edir. Əməkdaşlarımızın adından Yusif müəllimi yubiley yaşı münasibətilə təbrik edirəm, Vətənimizin adını uca tutan, fəaliyyəti ilə gənc nəsillərə örnək olan alimə yeni uğurlar və yaradıcılıq səadəti arzulayıram.

**C.İSAYEV,**
***Farmakoqnoziya kafedrasının müdiri, professor***

# ÜST: daha çox insan ürək xəstəliklərindən ölür

**Ürək xəstəlikləri dünyada əsas ölüm səbəbi olaraq qalır. Üstəlik getdikcə ölən insanların sayı artır. 2019-cu ildə ürək-damar xəstəliklərindən ölənlərin sayı 2000-ci ilə nisbətən 2 milyon çox olub. AZƏRTAC xəbər verir ki, bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) araşdırmasında deyilir.**



ÜST-nin məlumatına görə, ürək-damar xəstəlikləri dünyadakı bütün ölümlərin 16 faizinin səbəbidir. Bununla belə ÜST-nin Avropa bölgəsində son 20 ildə ürək xəstəliklərindən ölənlərin sayı 15 faiz azalıb.

Planetdəki əsas "qatillər"in ilk onluğuna yeddi qeyri-yoluxucu xəstəlik daxildir. Xüsusilə bu siyahıya ilk dəfə olaraq Altsheymer xəstəliyi və diabet də salınıb. Sonuncunun səbəbi olduğu ölüm 20 il ərzində 70 faiz artıb.

Dünyada 10 əsas ölümə səbəb olan aşağıdakı xəstəliklər bunlardır: İşemik ürək xəstəliyi, İnsult, Ağciyərlərin xroniki obstruktiv xəstəliyi, Aşağı tənəffüs yolu infeksiyaları, Neonatal xəstəliklər və pozuntular, Ağciyər, traxeya, bronx xərçəngi, Altsheymer xəstəliyi, digər demensiya növləri, İshal, Diabet, Böyrək xəstəlikləri.

"Yeni məlumatlar – qeyri-yoluxucu xəstəliklərin qarşısının alınması, diaqnostikası və müalicəsinə diqqət yetirməli olduğumuz barədə daha bir xatırlatmadır", – deyə, ÜST-nin rəhbəri Tedros Gebreyesus bildirir.

Yoluxucu xəstəliklər arasında birinci yeri aşağı tənəffüs yollarının infeksiyaları, ilk növbədə isə pnevmoniya tutur. Doğrudur, ÜST-də qeyd edildiyi kimi, bu xəstəliklərlə bağlı ölüm hallarının sayı azalıb.

Ölüm səbəblərinin ilk onluğuna artıq HİV / AİDS daxil deyil, qlobal səviyyədə bu sindrom indi 19 yerdədir. Lakin Afrikada - dördüncü sıradadır.

20 il ərzində ömür uzunluğu altı il artıb. ÜST-yə görə insanlar indi orta hesabla 73 il yaşayır. Əlbəttə ki, müxtəlif bölgələrdə ömür uzunluğu göstəriciləri bir-birindən fərqlənir.

Eyni zamanda, bütün dünyada əlil, xüsusən də həmin xəstəliklərlə - işemik ürək xəstəliyi, insult, diabet, ağciyər xərçəngi və xroniki obstruktiv ağciyər xəstəliyi ilə əlaqəli olanların sayı artır.

ÜST qeyd edir ki, müxtəlif xəstəliklərlə yanaşı qəzalar da çox vaxt ölüm və əlilliyə səbəb olur. Məsələn, yol-nəqliyyat hadisələrinin sayı artıb. Üstəlik yol qəzalarında xəsarət alanların 75 faizi kişilərdir.

ÜST, son 20 ildə Amerikada narkotiklərlə əlaqəli ölümlərin üç dəfə artdığını da bildirir.

# Hande Harmancı: Azərbaycan hökuməti koronavirusa qarşı peyvəndlə bağlı danışıqlar aparır və qısa zamanda vaksinin ölkəyə gətirilməsinə başlanılacaq

**"Koronavirusa qarşı vaksinlərlə bağlı dünya üzrə vəziyyət ümidvericidir. Artıq Böyük Britaniyada əhalinin bir qismi vaksinasiyadan keçib. Bilirsiniz ki, Azərbaycan hökuməti də bu istiqamətdə bir neçə ölkə ilə danışıqlar aparır və qısa zamanda peyvəndin gətirilməsinə başlanılacaq".**




Bunu Gəncədə səfərdə olan Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı jurnalistlərə müsahibəsində deyib.

O qeyd edib ki, peyvəndin əldə olunması xəstəliyin tam şəkildə aradan qaldırılması anlamına gəlmir: "Peyvəndin olması çox yaxşı haldır. Bu, o deməkdir ki, artıq "işıq görünür". Lakin unutmayaq ki, peyvəndin ölkəyə gətirilməsi ilə xəstəlik bitməyəcək. Əhalinin peyvənd olunması prosesi uzun bir zaman tələb edir. Bu baxımdan qorunma tədbirlərinə riayət edilməsi vacibdir".

# Hafiz Məmmədrəhim oğlu Əliyev

**Azərbaycan tibb ictimaiyyətinə ağır itki üz vermişdir. Əməkdar elm xadimi, əczaçılıq elmləri doktoru, professor Hafiz Məmmədrəhim oğlu Əliyev ömrünün 89-cu ilində vəfat etmişdir**



Hafiz Əliyev 1931-ci il dekabr ayının 12-də Bakı şəhərinin Buzovna kəndində anadan olmuşdur. 1949-cu ildə Moskva Əczaçılıq İnstitutuna (hazırda İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Əczaçılıq fakultəsi) daxil olmuş və 1954-ci ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir. Elə həmin ildə müsabiqə yolu ilə Azərbaycan Dövlət Tibb İnstitutunun aspiranturasına qəbul olunmuşdur.

1958-ci ildə namizədlik dissertasiyasını, 1964-cü ildə İ.M.Seçenov adına Moskva Tibb Akademiyasının əczaçılıq üzrə ixtisaslaşdırılmış Elmi Şurasında "B qrupu vitaminləri preparatlarının fotometriyası sahəsində tədqiqat" mövzusunda əczaçılıq elmləri üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir.

1954-ci ildə Bakı Əczaçılıq Texnikumunda müəllim vəzifəsində (saat hesabı) işləmiş, 1960-cı ildən isə Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) Əczaçılıq kimyası kafedrasına assistent vəzifəsinə qəbul olunmuşdur. 1963-1965-ci illərdə İnstitutun Bioloji kimya kafedrasında əvvəl assistent, sonra isə dosent əvəzi vəzifəsində çalışmışdır. 1965-2013-cü illərdə əczaçılıq kimyası kafedrasında müdir, 2013-2015-ci illərdə professor vəzifəsində çalışmışdır.

Professor H.Əliyev bütün fəaliyyəti dövründə elmi, pedaqoji və ictimai işlərlə məşğul olmuşdur. Respublikada çalışan demək olar ki, bütün əczaçıların müəllimi olmuşdur. Əczaçılıq kimyası fənninin tədrisi üçün ilk dəfə Azərbaycan dilində dərsliklər, dərs vəsaitlərin və tədris proqramlarının müəllifi olmuşdur. Onun elmi məsləhətçi və elmi rəhbərliyi altında 3 doktorluq və 23 namizədlik dissertasiyası yerinə yetirilmişdir. 1956-2016-cı illər ərzində 280 elmi işin (dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, 16 ixtiraya aid Müəlliflik şəhadətnaməsi (SSRİ) və 2 patent), o cümlədən MDB daxil olmaqla xaricdə 140 iş çap etdirmişdir.

1967-1983-cü illərdə Azərbaycan Əczaçıları Elmi Cəmiyyəti İdarə heyətinin sədri olmuş və Respublika əczaçılarının I və II qurultaylarının (1976 və 1983-cü illər) keçirilməsinə rəhbərlik etmişdir.

Professor H.Əliyev 1990-cı ilə qədər keçmiş SSRİ-də əczaçılıq elmi və təhsilinə aid bütün mərkəzi qurumlarda respublikamızı təmsil etmişdir. 1987-ci ildə Bakı şəhərində keçirilmiş Ümumittifaq Tədris-Metodik komissiyasının "Əczaçılıq kimyası və toksikoloji kimya" bölməsinin müşavirəsinə rəhbərlik etmişdir. SSRİ Tibb Elmləri Akademiyasının "Əczaçılıq" üzrə Ümumittifaq Problem Komissiyasının uzun illər ərzində üzvü olmuş, 25 ildən artıq Moskvada nəşr olunan əczaçılıq sahəsində ümumittifaq "Фармация" jurnalının redaksiya şurasının respublikadan olan yeganə üzvü idi.

1990-1998-ci illərdə ATU-nun əczaçılıq və kimya fənləri üzrə problem komissiyasının sədri, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 1997-ci ilə qədər tibb üzrə ekspert şurasının üzvü olmuşdur.

1996-cı ilin sonunda Milli Məclis tərəfindən "Əczaçılıq fəaliyyəti haqqında", 2006-2007-ci illərdə isə "Dərman Vasitələri Haqqında" Qanunların hazırlanma və müzakirə mərhələlərində Milli Məclisin "Sosial siyasət daimi komissiyasının" işçi qrupunun işində fəal iştirak etmişdir.

1998-ci ildə Azərbaycanda Ali Əczaçılıq təhsilinin 60 illiyinə həsr olunmuş yubiley konfransın təşkilatçısı, həmsədri olmuş, konfransın materiallarının hazırlanmasına, çap olunmasına rəhbərlik etmiş və redaktoru olmuşdur.

1994-cü ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Respublikanın "Əməkdar əczaçısı (provizor)", "Əməkdar müəllimi", 2010-cu ildə isə "Əməkdar Elm Xadimi" fəxri adlarına layiq görülmüşdür.

2001-ci ildə professor Hafiz Əliyevin təşəbbüsü ilə ölkəmizdə əczaçılıq sahəsi üzrə ilk və yeganə müstəqil elmi-praktik mətbu orqan olan "Azərbaycan Əczaçılıq və Farmakoterapiya Jurnalı" (2001-2006-cı illərdə "Azərbaycan Əczaçılıq Jurnalı") yaradılmış və özü də jurnalın Baş redaktoru təyin olunmuşdur.

İstehdadlı alim, ziyalı və qayğıkeş müəllim olan Hafiz Əliyevin əziz xatirəsi unudulmayacaq və onu tanıyanların qəlbində daim yaşayacaq.

***Allah rəhmət eləsin, qəbri nurla dolsun!***

*Əczaçlıq fakültəsinin və əczaçılıq kimyası kafedrasının əməkdaşları*

# ÜST-nin "Qərar ver və tərgit!" yeni kampaniyası 100 milyon insanın siqareti tərgitməsinə kömək edəcək



**Siqaretlə bağlı xəstəliklər hər il 8 milyon insanın ölümünə səbəb olur. Bu, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəsmi statistikasıdır. AZƏRTAC BMT-nin Xəbərlər xidmətinə istinadla bildirir ki, milyonlarla insanın sağlamlığı və həyatı üçün təhlükə yaradan COVID-19 pandemiyası fonunda ÜST siqaretlə mübarizə ilə bağlı qlobal kampaniyaya start verməyə qərar verib.**

"Siqaret çəkənlərin bu vərdişdən imtina etmək üçün əlavə motivasiyaya ehtiyacı varsa, pandemiya buna daha bir səbəbdir" – deyə, ÜST rəhbəri Tedros Qebreyesus bildirib.

ÜST tütün məhsulları istifadə edən insanlarda koronavirus infeksiyasının şiddətli ola biləcəyi tənəffüs, ürək-damar və onkoloji xəstəliklər riskinin daha yüksək olduğunu xatırladır.

"Qərar ver və tərgit! kampaniyası (Commit to quit) il ərzində davam edəcək. Onun çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatının ekspertləri, bir tərəfdən siqaretlə mübarizə ilə bağlı qanunvericilik tədbirlərinin gücləndirilməsi və digər tərəfdən əhaliyə lazımi dəstəyin göstərilməsi ilə bağlı tövsiyələrini ölkələrin səlahiyyətlilərinə təqdim edəcək. ÜST mütəxəssisləri istehlakçılar arasında tütünün zərərləri haqqında məlumat yayacaq və bu pis vərdişi tərgitmək üçün onlara tövsiyələr verəcək.

Virtual səhiyyə işçisi Florens ÜST işçilərinə kömək etmək məqsədilə yaradılıb. Günün istənilən vaxtında siqaretdən imtina etməyi qərara alan siqaret çəkənlərin köməyinə gələcək - plan hazırlamağa, mövcud qaynar xətlər və mobil tətbiqetmələr barədə məlumat verəcək.

"Qərar ver və tərgit! kampaniyası WhatsApp platformasında da reallaşacaq: orada ÜST-nin müvafiq çatına qoşulmaq olar. Təşkilatın veb-saytında "Tütündən imtina etmək üçün 100-dən çox səbəb" adlı siyahıya rast gəlmək olar.

ÜST, ilk növbədə, siqaret çəkənlərin sayı ən çox olan 22 ölkədə təşviqata diqqət ayıracaq. Onların arasında – Rusiya, Ukrayna, Almaniya, Polşa, Türkiyə, ABŞ, Çin və Hindistan.

ÜST-ə görə dünyada 780 milyon insan siqareti tərgitmək istəyir. Təşkilat, "Qərar ver və tərgit! kampaniyası sayəsində təxminən 100 milyon tütün istehlakçısının pis vərdişdən qurtula biləcəyinə ümid edir.

# Mərkəzi Qan Bankı donor olmaq istəyənlərə müraciət edib

**Mərkəzi Qan Bankı "Qan ver, həyat xilas et!" şüarı ilə vətəndaşlara müraciət edib. Müraciətdə bildirilir ki, onların həmrəylik nümayiş etdirərək qana ehtiyacı olan xəstələrə yardım göstərməsi çox vacibdir.**



Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə yoluxma hallarının artması talassemiya, hemofiliya, leykoz eləcə də koronavirusun ağır formasından əziyyət çəkənlərin qana olan tələbatı artıb. Ona görə də bu məqsədlə edilən müraciətdə deyilir: "Bütün sutka ərzində fəaliyyət göstərən qan banklarında sterillik və digər zəruri təhlükəsizlik üçün xüsusi tədbirlər görülüb. Sərtləşdirilmiş karantin günlərində vətəndaşların karantin qaydalarına uyğun icazə ilə müəyyən vaxt ərzində evdən çıxdıqlarını nəzərə alaraq bildirmək istəyirik ki, qanvermə prosesi zamanı gecikmə olduğu təqdirdə donorlar gecikmənin səbəbini bildirən arayışla təmin olunacaq. Qana ehtiyacı olan vətəndaşlar xilaskarlarını gözləyir".

# Bəzi xəstəliklər nəticəsində qoxubilmə hissi azala və ya itə bilər

**Rəngarəng qoxular zövq bəxş etdiyi kimi müxtəlif təhlükələrdən də qoruyur. Burun boşluğunun yuxarı mərtəbəsində yerləşən reseptorlar 200 minə qədər fərqli qoxunu ayırd etmək imkanı verir. Dad və iybilmə hissinin itirilməsi ilə hər 100 nəfərdən 5-i üzləşir.**



Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının həkim-otolarinqoloqu Gülyaz Kazımova AZƏRTAC-a deyib: "Müəyyən xəstəliklər nəticəsində iybilmə hissi azala və ya tam itə bilər. İnfeksion xəstəliklər, virus xəstəlikləri və allergik rinitlər nəticəsində burunda şişkinliklər əmələ gəlir. Həmin şişkinliklər nəticəsində hava axınının buruna daxil olması çətinləşdiyinə görə qoxu hissinə gedib çatması da çətin olur. Bunun nəticəsində qoxu yaranmır və siqnal itir. Müalicə olunmadıqda həmin hisslər bərpa olunmaya da bilər".

Onun dediyinə görə, qoxubilmə hissi, yəni anosmiya xalq təbabəti üsulları ilə müalicə oluna bilər, lakin əvvəlcə mütləq onun səbəbini aydınlaşdırmaq lazımdır: "Bəzi ağır nevroloji xəstəliklər nəticəsində iybilmənin itməsi mümkündür. Parkinson, Alsheymer, sayrışan nevroz, dağınıq skleroz və şəkərli diabet xəstəlikləri zamanı həmin halla üzləşmək olar. Yaşlı insanlarda qoxu hissinin itirilməsi təbii bir haldır".

İnsan təqribən 10 minə yaxın qoxunu seçmək qabiliyyətinə malikdir. Alimlər burunla ətraf mühitdən cəmi 2 faiz məlumat almağın mümkün olduğunu bildirirlər.

# Britaniyada koronavirusun yeni ştammı aşkar edilib

**Britaniya həkimləri koronavirusun insandan insana daha sürətlə keçə bilən yeni variantını aşkar ediblər.**



BBC-nin yaydığı xəbərə görə, səhiyyə naziri Mett Henkok bu məlumatı parlamentdə çıxışında bəyan edib.

Nazirin sözlərinə görə, Britaniyanın 60 rayonundakı xəstəxanalarda koronavirusun bu yeni ştammına yoluxma halları qeydə alınıb. O bildirib ki, hazırda yeni ştamm Solsberi yaxınlığında yerləşən Porton-Daun hərbi laboratoriyasında araşdırılır. Mett Henkok daha sonra əlavə edib ki, yeni ştamm haqqında artıq Ümumdünya Səhiyyə Təşkilatına məlumat verilib.

Henkokun sözlərinə görə, ekspertlər hesab edirlər ki, koronavirusa qarşı perspektivli vaksinlər yeni ştamma da təsir edəcək. O deyib: "Biz, əsasən İngiltərənin cənubunda koronavirusun bu variantına yoluxma ilə bağlı minə yaxın hadisəni müəyyən etmişik".

Virusun yeni ştammının belə geniş yayılması onunla izah olunur ki, o insandan insana daha sürətlə keçə bilir. Ancaq ekspertlər hələ bunu qəti deyə bilmirlər. Nazirin sözlərinə görə, yeni ştamma yoluxmuş insanlarda xəstəliyin daha ağır keçəcəyini deməyə də hələlik əsas yoxdur.

Nazir deyib: "Bu ölümcül xəstəliyi nəzarət altında saxlamaq üçün, səbəblərdən asılı olmayaraq, biz tezliklə qəti tədbirlər görməliyik".

# Britaniyalı həkim koronavirusdan qoruya bilən qida məhsullarının adlarını açıqlayıb

**Britaniyalı həkim Gida Meykerin fikrincə, mikroelementlərin müəyyən dəsti ilə birgə fəaliyyət göstərən qida məhsulları orqanizmi koronavirusa qarşı zəruri maddələrlə təmin edə bilər.**



Gida Meyker qida məhsullarının tərkibindəki koronavirusdan qoruyan zəruri maddələr barədə "Daily Express" nəşriyyatına məlumat verib.

"İmmun sistemi: A, C, D, E, B6 və B 12, folatlar, sink, dəmir, mis və selen vitamin və minerallar kompleksini tələb edir", - deyə ekspert əsas nutrientləri açıqlayıb.

İngilis həkim C vitamini ilə zəngin olan brokoli, şirin bibər, brüssel kələmi və sitrus meyvələrindən istifadə etməyi məsləhət görüb.

Mütəxəssis yaşıl yarpaqlı tərəvəzləri, yerkökü, balqabaq və şirin kartofu orqanizmi A vitamini ilə, qoz-fındıq, ispanaq, təmizlənməmiş günəbaxan yağını isə E vitamini ilə təmin etdiyini bildirir.

D vitamininin qəbulundan danışan həkim bildirib ki, qışda günəş işığının çatışmadığı şəraitdə tərkibində həmin vitaminin olduğu qidaların orqanizmi təmin edə bilmədiyinə görə əlavələr edilməlidir. Həkim həmin məhsullardan mart ayı başlayanadək istifadə etməyi tövsiyə edir.

# Düzgün qidalanmamaq orqanizmi istənilən virus infeksiyası qarşısında aciz qoyur

**Yeni növ koronavirus (COVID-19) pandemiyası dövründə bəzən həm sağlam qidalanmadan, həm də pəhriz saxlamaqdan imtina edənlər olur. Düzgün qidalanmamaq isə artıq çəkiyə və bəzi xəstəliklərin yaranmasına səbəb olur.**




Pəhriz saxlamaq istəyənlərin diqqət yetirməli məsələlərindən danışan həkim-diyetoloq Ləman Süleymanova AZƏRTAC-a deyib: "Düzgün qidalanmamaq, kortəbii diyetalar, arıqlamaq üçün qəbul edilən dərmanlar immun sistemini o qədər zəiflədir ki, orqanizm istənilən virus infeksiyası qarşısında acız qalır. Pandemiya dövründə immuniteti zəif olan, siqaret çəkən, arıqlamaq üçün dərmanlar istifadə edən və mədəkiçiltmə əməliyyatına məruz qalanlar xüsusilə ehtiyatlı olmalıdırlar".

Həkim-diyetoloqun dediyinə görə, pandemiya zamanı, həmçinin stresdə olarkən diyeta saxlamaq çətinlik yaradır, eyni zamanda, immun sisteminə də mənfi təsir göstərir. Ən vacib şərtlərdən biri isə gündə üç dəfə düzgün qidalanmaqdır: "Səhər, günorta və axşam yeməyi mütləq vacibdir. İmmunitet sisteminin aktivləşməsi üçün səhər qəbul edilən qidaların əhəmiyyəti çox böyükdür. Saat 7-dən 9-a qədər qəbul edilən səhər yeməyi zamanı rasionda mütləq meyvə-tərəvəzlər də olmalıdır. Xüsusilə C vitamini ilə zəngin olan narıngi və portağal qəbulu vacibdir. Bununla yanaşı, tərkibində A və E vitamini olan, eləcə də B qrupu vitaminləri, dəmirlə zəngin meyvələrə üstünlük verilməlidir. Kəskin respirator virus infeksiyalarının yayıldığı dövrdə süfrədə qırmızı ət, balıq əti, proteinlə zəngin qidalar olmalıdır. Axşam saatlarında orqanizm ağırlaşır, qanda şəkərin səviyyəsi yüksəldiyindən təzyiq də arta bilər, ona görə də yüngül qidalar qəbul edilməli, çoxlu maye içilməlidir".

# COVID-19 xəstələri həkim nəzarətində olmaqla yanaşı, həm də qidalarına fikir verməlidirlər

**Hər gün minlərlə ölkə vətəndaşı yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxur və onların sayındakı artım səviyyəsi ciddi narahatlıq doğurur. İnfeksiyaya yoluxanlar tez bir zamanda xilas olmaq üçün ilk növbədə, qidalanmaya diqqət yetirməklə immunitetini gücləndirmək qayğısına qalmalıdır. Təcrübə göstərir ki, COVID-19 xəstələri həkim nəzarətində olmaqla yanaşı həm də qidalarına fikir verməlidirlər.**



Həkim-diyetoloq Ləman Süleymanovanın fikrincə, koronavirusa yoluxanların gündəlik qida rasionuna bitki mənşəli yağların əlavə olunması zəruridir: "Lakin kətan, zeytun və kərə yağı da daxil olmaqla yeməklərin tərkibində müxtəlif növ yağların miqdarına xüsusi diqqət yetirmək lazımdır. Bundan başqa hüceyrələri yeniləyən, bağırsaq iltihabını aradan qaldıran, xolesterini azaldan avakado belə vaxtda ən qiymətli meyvələrdən biri hesab olunur. Un məmulatları, o cümlədən müxtəlif növ şirniyyatlarla qidalanmaq koronavirusdan sağalma prosesini ləngidir. Orqanizmi zəiflədən həmin şirin məhsullardan, xəmir xörəklərindən və digər oxşar qidalardan tamamilə imtina edilməli, daha faydalı qidalara üstünlük verilməlidir. Əks halda, xəstəlik daha uzun müddət davam edə bilər".

Onun dediyinə görə, koronavirusa yoluxanların masasında toyuq, balıq və krevetlər, müxtəlif növ dənli bitkilər, tərəvəz salatları, göyərti və C vitamini ilə zəngin olan meyvə əskik olmamalıdır. Narıngi, portağal, kök və kividən istifadə etmək də faydalıdır. Tərkibində bol vitaminlər və zülallar olan həmin qidalar xəstəliyə qalib gəlməyə kömək edir.

## Allah rəhmət eləsin!

Psixiatriya kafedrasının əməkdaşları kafedranın assistenti Eldin Hüseynbəyliyə anası

**Zeynəb xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi biologiya və genetika kafedrasının əməkdaşları kafedranın müdiri Vaqif Kərimova əzizi

**Nənəxanım Kərimovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## *Etibarsız sayılır*

17 oktyabr 2019-cu il tarixdə Səhiyyə Nazirliyinin kadr məsələləri üzrə komissiyası tərəfindən Qubadzadə Ülviyyə Etibar qızına verilən şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200